# HƏRBİ AND

Azərbaycan Respublikasına xidmətimlə fəxr edirəm!

№ 16 (1074) 9 may 2025-ci il, Həftəlik ictimai-siyasi qəzet Qiyməti : 50 qəpik


# Böyük Vətən müharibəsində cəbhə komandanı leytenanta həsəd aparıb...



*Həyat olum-ölüm aralığı deyil, həyat dövlətə, xalqa ad olan illərdir. Belə illərə ömür deyilir. Ömrünün üfüqləri əbədiyyətə çatanlar heç zaman unudulmur. Onların ömürlərinin başlanğıcı olur, özlərinin son nəfəsi olur, ancaq ömürlərinin sonu olmur. 1920-ci ildə Zərdab rayonunun Bıçaqlı kəndində anadan olmuş Məlik Məhərrəmovun yaşadığı illər belə ömürləşdi, belə ömür olmuşdu...*

Məlik Məhərrəmov orta məktəbi bitirdikdən sonra təhsil almaq istəyi ilə Bakıya gəlir, Xalq Təsərrüfatının Qeydiyyatı texnikumuna daxil olur. Oxuyur. İllərini arzularının işığında yaşayacaqdı. Ona elə gəlirdi ki, aylara-illərə ömür qüdrəti verməyi bacarmayanlar zamanın qədrini bilmir. Texnikumu bitirdi, "Qırmızı oktyabr" artelində mühasib köməkçisi işlədi. O da bildi ki, zəhmətdən keçməyən yol duruluğa aparmır...

1939-cu ilin oktyabr ayında Məlik Məhərrəmovu hərbi xidmətə çağırdılar, Moskvaya, hərbi məktəbə göndərdilər. Rabitəçi olacaqdı. Bu, hərbi ixtisas ilk vaxtlardan xoşuna gəlmişdi, öyrəndikcə bu ixtisası sevirdi. Bu sevgi kursant Məlik Məhərrəmovu digərlərindən fərqləndirirdi...

1941-ci il iyunun 22-də alman-faşist işğalçıları SSRİ-yə hücum elədi. Böyük Vətən müharibəsi başladı. İyunun 25-də məktəbin kursantlarını döyüşə cəlb etdilər. "Marşevaya rota" döyüşə göndərildi. Məlik Məhərrəmovun döyüş yolu bu dəstənin tərkibində başladı...

Məlik Məhərrəmov döyüşdə yaralandı, müalicə olundu, yenidən döyüşlərə qayıtdı. Şimal-Qərb cəbhəsində döyüşdü. Volxova yaxınlığında bir də yaralandı. Bir də müalicə olunduqdan sonra Vladimirski piyada məktəbinə göndərildi. Məktəbi bitirdi, xidmətini "leytenant" hərbi rütbəsi ilə davam etdirdi, Birinci Belarus cəbhəsinin 5-ci atıcı rotasının komandiri kimi döyüşməyə başladı.

Rota mərdliklə döyüşürdü. Komandirin qətiyyəti, mərdliyi, qorxmazlığı döyüşçülərin döyüş əzmini, qələbə ruhunu yüksəldirdi. Komandanlığın əmri ilə rota Çerniqov şəhərinin azad edilməsi uğrunda döyüşlərə göndərildi. Döyüşdülər. Komandirin də əsgər kimi döyüşməsi döyüşçülərin şücaətini artırırdı, bu döyüşü müharibənin son döyüşü bilib döyüşürdülər. Sentyabrın 22-də şəhər düşmənlərdən təmizləndi. Leytenant Məlik Məhərrəmov "Qırmızı bayraq" ordeni ilə təltif olundu.





Rota sonrakı döyüşlərdə də mühüm mövqe qələbələri qazanmışdı.

1943-cü ilin payızında Dnepr çayını keçmək əmri verilir. Bir neçə bölük buna cəhd etmişdi, hamısı ağır itkilər verərək geri çəkilmişdi. Əmrin icrası Məlim Məhərrəmovun bölüyünə tapşırıldı. Çayı keçmək üçün bölüyün gücü ilə qısa müddətdə sallar, qayıqlar düzəldə bildilər. Həmin ərəfədə düşmənin iki pulemyotunu qənimət olaraq götürmüşdülər. İki əsgər düşmənə həmin pulemyotlardan atəş açmağa başladı. Çətinliklə də olsa telefon xətti də çəkə bilmişdilər. Çayı keçdilər. Əmrin davamı kimi düşmənin üstünü aldılar. Telefonla bu haqda komandanlığa məlumat verdilər. Əsas qüvvələr gələnə kimi 12 saat döyüşdülər, düşməni möhkəmləndirdiyi istehkamlardan çıxmağa məcbur etdilər. 1944-cü il yanvarın 15-də Məlik Məhərrəmova və onun 17 döyüşçüsünə Sovet İttifaqı Qəhrəmanı adı verildi.

Məlik Məhərrəmov Lenin ordeni ilə də təltif edilir. Sovet İttifaqı Qəhrəmanının "Qızıl Ulduz"unu və ordenini ona 1943-cü il fevralın 4-də Kremldə Kalinin təqdim etdi.

Sovet ittifaqı Qəhrəmanı Məlik Məhərrəmov döyüş yolu keçdiyi diviziyanın tərkibində döyüşmək arzusunda olduğunu bildirir, onu 1944-cü ilin iyununda Çerniqov atıcı diviziyasına göndərirlər. Məlik Məhərrəmov 215-ci polkun atıcı batalyonunun komandiri təyin olunmuşdu. Diviziya döyüşə-döyüşə Polşaya çatır. Burda möhkəmlənməli idilər. Komandanlıq Məlik Məhərrəmova döyüşsüz döyüş əmri vermişdi: Visla çayı sahilində güclü istehkam mövqeləri qurmalı. Əmr qısa müddətdə uğurla yerinə yetirildi. Məlik Məhərrəmov "Kutuzov" ordeni ilə təltif olundu. Bu istehkam mövqelərindən başlayan hücum qələbə ilə nəticələndi. Polşa azad olundu.





Döyüşdə Məlik Məhərrəmov da yaralansa da qısa müddətli müalicədən sonra döyüşlərə qayıtdı.

Berlin uğrunda döyüşlər başlayır. Sovet ittifaqı Qəhrəmanı Məlik Məhərrəmov bu döyüşlərdə də yaralanır. Müharibə boyu altıncı dəfə. Onu Xarkov şəhərinə hərbi hospitala göndərirlər. Birinci dərəcəli "Vətən müharibəsi" ordeni ilə təltif edildiyini müalicə olunanda eşitmişdi...

Bir xatirə: 1-ci Belorus cəbhəsinin komandanı, 2 dəfə Sovet İttifaqı Qəhrəmanı K.K. Rokossovski bir dəstə generalla azərbaycanlı leytenant Məlik Məhərrəmov və onun qvardiyaçı bölüyü ilə tanış olmaq üçün Dnepr çayının sahilinə gəlir. O, Məhərrəmovla yaxından tanış olub, sonra səmimiyyətlə, "Leytenant Məhərrəmov, sənə həsəd aparıram".

Məlik Məhərrəmov təəccüblə:

- Cəbhə komandanı leytenanta həsəd aparармı?, - deyir.

Rokossovski təsdiq edir:

- Bəli, aparar. Mən leytenant olanda məni heç kəs tanımırdı. Sənin qəhrəmanlığın haqqında isə radio danışır, qəzetlər yazırg

Böyük Vətən müharibəsi qələbə ilə başa çatdı. Sovet ittifaqı Qəhrəmanı Məlik Məhərrəmov da tərxis edildi. Azərbaycana qayıtdı, Lənkəranda, Bakının Salyan hərbi kazarmasında qərargah rəisi, Ağdaş, Oğuz, Qəbələ, Xızı, Sabirabad, Kürdəmir və Nərimanov rayonlarında hərbi komissar, Bakı Dövlət Universitetində hərbi kafedranın, xüsusi şöbənin rəisi işlədi...

Sovet İttifaqı Qəhrəmanı Məlik Məhərrəmovun döyüş yolu özünün də, Azərbaycanın da qüdrəti kimi tarixləşdi, unudulmur, unudulmayacaq...

**Rəşid FAXRALI**